Tədbiri giriş sözü ilə ADPU-nun rektoru Yusif Məmmədov açaraq Müasir Təlim Texnologiyaları Təlim və Resurs Mərkəzinin fəaliyyəti barədə qısa məlumat verib.

Müasir Təlim Texnologiyaları Təlim və Resurs Mərkəzinin rəhbəri Fəxrəddin Yusifov mərkəzin kurikulum islahatlarının səmərəliliyinin artırılmasına dəstək məqsədilə yaradıldığını bildirib. Mərkəzdə müəllimlərin müasir təlim texnologiyaları ilə bağlı hərtərəfli biliklərə yiyələndiklərini söyləyən F.Yusifov artıq 137 nəfər müəllimin fəal təlim kurslarından keçdiyini vurğulayıb.

Tədbirdə iştirak edən YUNİSEF-in Azərbaycan nümayəndəliyinin rəhbəri Mark Herevard yeni yaradılmış mərkəzin fəaliyyətini yüksək qiymətləndirib. O, YUNİSEF-in Resurs Mərkəzinin texniki təchizatına köməklik göstərdiyini tədbir iştirakçılarının nəzərinə çatdırıb.

Təhsil naziri Misir Mərdanov öncə ADPU-da fəaliyyət göstərən Müasir Təlim Texnologiyaları Təlim və Resurs Mərkəzi ilə tanışlığından məmnunluğunu ifadə edib. Mərkəzdə yaradılmış şərait və imkanlar haqqında fikirlərini bildirən nazir Azərbaycanın müstəqillik illərində digər istiqamətlərdə olduğu kimi təhsil sahəsində də ciddi uğurlar qazandığını söyləyib.

Müəllim hazırlığı ilə məşğul olan ali məktəblərin işinin günün tələbləri səviyyəsində təşkili üçün həyata keçiriləcək zəruri tədbirlərə diqqət çəkən nazir bu təhsil ocaqlarında çalışan müəllimlərin orta məktəblərdə gedən proseslərlə daha yaxından tanış olmasının əhəmiyyətinə toxunub. Təhsil naziri ADPU-nun müəllim hazırlığı sahəsində zəngin təcrübəsi olduğunu bildirərək burada təhsil alan tələbələrin müəllim kimi hərtərəfli hazırlıq keçməsinin zəruriliyini qeyd edib.

Misir Mərdanov, həmçinin digər ali məktəblərdə də müvafiq mərkəzlərin yaradılmasının əhəmiyyətindən bəhs edib.

Daha sonra Müasir Təlim Texnologiyaları Təlim və Resurs Mərkəzində fəal təlim kurslarını bitirmiş müəllimlərə sertifikatlar təqdim olunub.